# Fərqli düşüncə

Xüsusi daycest buraxılışı

Xəbər və fikir jurnalı • №16 (56) • 20.06.2011


AzadliqRadiosu.az ®


Amerikalı jurnalist Bakıda döyüldü — səh.3

Azərbaycanlılar Ermənistana qayıda bilərmi? — səh.4

Партбилет "сдан" на могилу Гейдара Алиева — səh.7

«Washington Post»: «Eurovision» Azərbaycanı dəyişəcəkmi? — səh.10

Azərbaycanda hansı xəstəlikdən nə qədər insan ölür? — səh.11

«Ədəbi Azadlıq-2011» müsabiqəsinin qalibi bilindi — səh.13

ABŞ-ın məxfi internet layihələri — səh.14

Nəqliyyatda qiymətlər qalxacaq — səh.4


## Ağsuda polis niyə intihar edib?



İyunun 9-da Ağsu rayonunda yol polisi əməkdaşı, 26 yaşlı polis serjantı Asim Baxşıyev polis şöbəsinin qarşısında xidməti maşında tabel tapançası ilə atəş açaraq özünü öldürüb. Faktla bağlı rayon prokurorluğunda Cinayət Məcəlləsinin özünü öldürmə həddinə çatdırma (125-ci maddə) maddəsi ilə cinayət işi başlanılıb.

səh.9

## ABŞ rəsmisi: "Azərbaycan hökuməti müasirləşməlidir"



Ötən həftə Bakıda səfərdə olan ABŞ dövlət katibinin köməkçisinin müavini Tomas Melia deyib ki, Azərbaycanda insan haqlarının vəziyyəti daha yaxşı ola bilər. Əgər Azərbaycan hökuməti də ABŞ dövləti ilə əlaqələrini gücləndirmək istəyirsə, bu sahədə çalışmalıdır.

səh.8

## İctimai Palatanın aksiyasında 10-larla etirazçı saxlanılıb



İctimai Palatanın iyunun 19-na təyin etdiyi etiraz aksiyası «Nəriman Nərimanov» kinoteatrının qarşısına planlaşdırılmışdı. Polis əvvəlcədən «Nərimanov» kinoteatrının qarşısını və ətraf ərazini nəzarətə götürdüyündən, etiraz aksiyası paytaxtın müxtəlif yerlərində keçirilib. Polis bütün ərazilərdə aksiyanın gedişinə müdaxilə edib, iştirakçıları saxlayıb.

səh.2

## Üçüncü nəfəs



# İctimai Palatanın aksiyasında 10-larla etirazçı saxlanılıb



**İctimai Palatanın iyunun 19-na təyin etdiyi etiraz aksiyası «Nəriman Nərimanov» kinoteatrının qarşısına planlaşdırılmışdı. Şəhər rəhbərliyi aksiyanın təşkilatçılarına Səbayel rayonundakı «20-ci sahə»də sürücülük məktəbinin həyətini təklif etmişdi. Bakı Şəhər Baş Polis İdarəsinin rəis müavini Səhlab Bağırov isə öncədən bildirmişdi ki, icazəsiz aksiyaya cəhd ediləcəksə, qarşılarında polisi görəcəklər: «İcra Hakimiyyəti onlara yer verib. Buyurub, ayrılmış yerdə aksiyalarını keçirsinlər. Əgər ayrılmış yerdə aksiya olacaqsa, polis də asayişi təmin edə bilər. Əks halda onlar icazəsiz aksiyaya cəhd edəcəklərsə, qarşılarında polisi görəcəklər» .**

**AKSİYADAN ÖNCƏ POLİSƏ ÇAĞIRIŞ**

İyunun 18-də Sumqayıtda bir neçə müsavatçının polis bölməsinə aparıldığı bildirilir. Bu haqda AzadlıqRadiosuna



Müsavat başqanının müavini Gülağa Aslanlı məlumat verib: «Dörd müsavatçı - Elçin Səlimov, Rövşən Muradov, İsa Məmmədli və AXCP-nin Sumqayıt şəhər təşkilatının sədri Mahir Qulubəyli artıq polis bölməsindədirlər».

Gülağa Aslanlının sözlərinə görə, partiyanın Sumqayıt şəhər təşkilatının sədri Fəxrəddin Abbas, başqa fəallar Əli Qarayev, Vidadi Feyzi də polisə çağrılıb: «Dünən Fəxrəddin Abbas polis bölməsinə getsə də, bölmə rəisi orda olmayıb. Bu gün sahə müvəkkili yenidən onu çağırıb. Artıq Fəxrəddin Abbasın yaşadığı evin qarşısında post qurulub. Ağ rəngli maşında gözləyirlər».

Mübariz Qurbanlı: **İCTİMAİ PALATANIN MİTİNQİNİN QARŞISI ALINACAQ**

«İctimai Palatanın keçirtmək istədiyi mitinq qeyri-qanunidir. Həmin mitinqin qanuna zidd olduğu əsas götürülərək qarşısı alınacaq». Bunu AzadlıqRadiosuna YAP icra katibinin müavini, deputat Mübariz Qurbanlı deyib. YAP icra katibinin müavini sonda deyib: «Biz bu cür qeyri-qanuni aksiyaların keçirilməsinə imkan verməklə mənfi nümunə yarada bilmərik. Hamı qanuna tabe olmalıdır».

Əli Kərimli: **«İCTİMAİ PALATANIN AKSİYASI DİNC XARAKTER DAŞIYIR»**

AXCP sədri Əli Kərimli 19 iyun mitinqi öncəsi hökumətdən və hakim partiyadan gələn bəyanatlara münasibət bildirib: «İctimai Palatanın aksiyası dinc xarakterlidir. Palata tərəfdarlarına təlimat verilib ki, hər cür qarşıdurmadan yayınsınlar, hətta polis zorakılığına məruz qalanda da cavab verməsinlər».

O ki qaldı aksiyanın qeyri-qanuni olması haqda deyilənlərə:«Aksiya qanunidir. Qanunun tələbinə uyğun biz Bakı Şəhər İcra Hakimiyyətini xəbərdar etmişik. Konstitusiyanın hüquqi qüvvəsi hər hansı YAP funksionerinin açıqlamasından və ya icra hakimiyyətindəki şöbə müdirinin məktubundan daha üstündür».

**BAKININ MÜXTƏLİF YERLƏRİNDƏ ETİRAZ AKSİYALARI**

Mitinqdən öncə polis «Nərimanov» kinoteatrının qarşısını və ətraf ərazini nəzarətə götürüb. Mitinq vaxtı bəlli oldu ki, polis aksiyanın təyin edildiyi yerə müxalifətçiləri buraxmadığı üçün aksiya paytaxtın müxtəlif yerlərində keçirilib:

- "Nərimanov" metrosunun ətrafında;
- "Gənclik" metrosunun yanında;
- "Kukla" Teatrının yaxınlığında;
- Hüseyn Cavid bağında;
- "İnşaatçılar" metrosunun çıxışında;
- "Neftçilər" metrosunun ətrafında;
- Ayna Sultanova heykəlinin yanı.



Saat 19-da polislər Müsavat Partiyasının qərargahını əhatəyə alıb. Xəbəri AzadlıqRadiosuna Gülağa Aslanlı verib. Bir qədər əvvəl isə partiyadakı internet xətti kəsilib.

**10-LARLA ETİRAZÇI SAXLANILIB**

Polis bütün ərazilərdə aksiyanın gedişinə müdaxilə edib, iştirakçıları saxlayıb. Saxlanılanlar Müsavat və AXCP-nin, İctimai Palatanın üzvləri, gənc fəallar və narazı vətəndaşlardır. Onların arasında xeyli sayda qadın var.

# «Döyülən qızlardan birinin qolu sınıb»

## Amerikalı jurnalist Amanda Eriksonla britaniyalı hüquq müdafiəçisi Celia Davies Bakıda döyüldü


Emin Hüseynov

**İyunun 15-də axşam saatlarında amerikalı jurnalist Amanda Eriksonla britaniyalı hüquq müdafiəçisi Celia Davies Bakıda naməlum şəxslərin hücumuna məruz qalıblar. ABŞ səfirliyi yaydığı məlumatda qeyd edir ki, cinayətdən xəbərdardır və hücuma məruz qalanlara yardım edirlər: «Zərərçəkənlər polisə məlumat veriblər, təhqiqat barədə bütün suallar Azərbaycan polisinə verilməlidir»- səfirlik belə deyir.**

Amanda Eriksonun özü isə AzadlıqRadiosuna deyib: *«Mən hər hansı bəyanat vermək istəmirəm. Məncə, bizim hücuma məruz qalmağımız üçün hər hansı motiv olmayıb».*

Amanda Erikson və Celia Davies yerli jurnalistlər və vətəndaş cəmiyyəti fəalları üçün treninqlər keçirlər. Erikson həmçinin «Washington Post» və «New-York Times» qəzetləri ilə əməkdaşlıq edir. Həmin xanımlarla əməkdaşlıq edən Reportyorların Azadlığı və Təhlükəsizliyi Təşkilatının rəhbəri Emin Hüseynov qızların döyüldüyünü, Celia Daviesin qolunun qırıldığını deyir. Hüquq müdafiəçisi yaxın günlərdə əməliyyat üçün Böyük Britaniyaya yola salınmalıdır.

### «QIZLAR QORXUBLAR»

Emin Hüseynov da, həmin xanımları tanıyan jurnalist Eynulla Fətullayev də onların qorxduğunu, sarsıntı keçirdikləri üçün danışmaq istəmədiklərini deyirlər.

Eynulla Fətullayev:

«Qorxurlar. Mən deyirəm dəqiq döyüblər. Hətta onlardan birinin – Celianın qolunu sındırıblar. Altı-yeddi nəfər idmançı görkəmində olublar. Qızlar da çox qorxublar. Onlar şokdadırlar. Azərbaycan hüquq-mühafizə orqanları maksimum 3 günə bunun üstünü açmalıdır. Özü də şəhərin hər yerində kameralar quraşdırılıb. Bu qədər vəsait ayrılıb».

### HADİSƏNİN SƏBƏBİ NƏ OLA BİLƏR?

Emin Hüseynov konkret fikir deməyə çətinlik çəkir. Amma o, hadisənin detallarına diqqət çəkir: *«Bu xanımları bir neçə dəqiqə möhkəm döyüblər. Üstlərindən də heç nə götürülməyib: nə pul, nə kart, nə telefon. Onların üst geyimləri də qıcıqlandırıcı deyildi. Həmin gün Qurtuluş Günüylə bağlı atəşfəşanlığa gediblər. Yolda gedəndə izləndiklərini biliblər. Evlərinin düz qarşısında döyülüblər. Hətta güləş fəndindən istifadə ediblər. Onları bir neçə dəfə qaldırıb yerə vurublar. Üstəlik də bizim əməkdaşı - Celianı yerə yıxıb təpikləyiblər. Yenə deyirəm ki, heç nə götürülməyib. Sual edirəm, bu kimə lazımdır? Dörd oğlan iki xanımı niyə qəddarlıqla döysün?»*

### CİNAYƏT İŞİ AÇILIB

Bu barədə Yasamal rayon Polis İdarəsinin rəisi İsmayıl Əsədov ANS-ə bildirib. Polis rəisi əcnəbilərə hücum edənlərə qarşı xuliqanlıq maddəsi ilə cinayət işinin qaldırıldığını, həmin şəxslərin tapılması istiqamətində əməliyyat-istintaq tədbirlərinin həyata keçirildiyini bildirib

### MƏTBUAT ŞURASI HADİSƏNİ PİSLƏDİ

Amerikalı jurnalist Amanda Erikson və britaniyalı hüquq müdafiəçisi Celia Daviesin iki gün əvvəl hücuma məruz qalmasını Şuranın İdarə Heyəti iyunun 17-də keçirdiyi iclasda müzakirə edib. Şura üzvü, "525-ci qəzet"in redaktoru Rəşad Məcid bu barədə AzadlıqRadiosuna məlumat verib: «Bu gün biz Mətbuat Şurasının İdarə Heyətinin iclasına toplaşmışdıq. Orda da məsələyə münasibət bildirildi, bu məsələ pislənildi və qərara alındı ki, müraciət edilsin ki, hadisəni törədənlər tapılsın».

## AzadliqRadiosu.az saytında həmçinin oxuyun


**AKP-nin bir qələbəsi və bir məğlubiyyəti**


İlham Şaban: **«Trubalar» arasında sıxılanlar**


**Qaravəllinin ağlı-qaralı günləri**


**Gənclər üçün Almaniyada dil öyrənmək imkanı**


**Azərbaycanda hər 1000 nəfərə 103 avtomobil düşür**

# Nəqliyyatda qiymətlər qalxacaq



**Nəqliyyat Nazirliyi isə ictimai nəqliyyatda gediş haqqını artırmağa hazırlaşır.**

İyunun 16-da nəqliyyat naziri Ziya Məmmədov bu haqda mətbuata deyib. Nazir bu addımı Bakıda nəqliyyatın idarə edilməsində intellektual sistemin tətbiqi ilə əlaqələndirib. «Bu sistemin tətbiqi çərçivəsində yeni avadanlıqlar tətbiq edilir. Bu isə öz xərcini çıxarmalıdır»,- deyə nazir vurğulayıb.

Ziya Məmmədov qiymət artandan sonra avtobuslarda smart kartlardan istifadə ediləcəyini də deyir. Hələlik bəlli deyil qiymət nə qədər qalxacaq və nə vaxtdan qaldırılacaq.



Ziya Məmmədov

**«ONU NƏQLİYYAT NAZİRLİYİ BİLƏR»**

Tarif Şurasından AzadlıqRadiosuna deyilib ki, Nəqliyyat Nazirliyi hələlik ictimai nəqliyyatda gediş haqqının artırılması ilə bağlı Tarif Şurasına müraciət etməyib. "Bakı Sərnişin Nəqliyyatı" MMC-nin mətbuat xidmətinin rəhbəri Samir Həsənov da deyir ki, bu haqda onlara indilik heç nə deyilməyib. Bəs qiymət artımına onlar necə baxır? Suala qısa cavab verdi: «Onu Nəqliyyat Nazirliyi daha yaxşı bilər. Təklif birbaşa onlardan gəlir».

**«20 QƏPİK NORMALDIR»**

*Azad İqtisadiyyata Yardım Mərkəzinin rəhbəri Zöhrab İsmayıl isə ona diqqət çəkir ki, marşrutlarda indiki qiymət - 20 qəpik normaldır:* «Bütün regionu götürsək, Gürcüstanı, Moldovanı, Ukraynanı, Ermənistanı, Belarusu, Qazaxıstanı, Mərkəzi Asiya ölkələrini, qiymət bundan artıq deyil. Bəzi ölkələrdə qiymət buna yaxındır, bəzilərindəsə azdır. Çoxunda da intellektual idarəetmə tətbiq olunub. Nazirlik hələ ictimai nəqliyyatda bilet məsələsini həll edə bilməyib».

**NAZİRLİK CAVAB VERMƏDİ**

Nəqliyyat Nazirliyindənsə deyilənlərə münasibət ala bilmədik. Nazirlikdə intellektual sistemə keçid layihəsinin rəhbəri Sədrəddin Məmmədov dedi ki, Rusiyadan qonaqları var deyə suallarımıza cavab üçün gün ərzində vaxt tapa bilməyəcək. Nazirliyin sözçüsü Namiq Həsənov isə «5 dəqiqə sonra zəng edin» desə də, günboyu dəstəyi qaldırmadı.

**33 MİLYONLUQ BAHALAŞMA**

Bəs Bakıda Nəqliyyatın İntellektual İdarəetmə Sistemi Layihəsinin dəyəri niyə və nə qədər bahalaşıb? Paytaxtda bu sistemin qurulması əvvəlcə nəzərdə tutulduğu kimi 77 mln. ABŞ dollarına deyil, 100 mln. dollara başa gələcək. Bunu Nəqliyyat Nazirliyi Katibliyinin rəhbəri Namiq Həsənov daha öncə söyləmişdi.

O deyib ki, bahalaşma həm dünya iqtisadiyyatında baş verən proseslər, həm də layihənin əhatə dairəsinin genişlənməsi ilə bağlıdır. Belə ki, əvvəllər layihə çərçivəsində 6 istiqamətdə kameraların qurulması nəzərdə tutulurdusa, indi bu istiqamətlərin sayı artıb.

***Şahnaz Bəylərqızı***



Əli Həsənov

# Azərbaycanlılar Ermənistana qayıda bilərmi?

**«Ermənistandan qovulan qaçqınlara Azərbaycan vətəndaşlığının verilməsi münaqişə həll olunandan sonra onların geri qayıtması üçün problem yaratmayacaq». Bunu Baş nazirin müavini, Qaçqın və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Əli Həsənov jurnalistlərə açıqlamasında deyib.**

Ə. Həsənov Heydər Əliyevin 2001-ci il tarixli sərəncamını xatırladıb. Ermənistan qaçqınları üçün qəsəbənin tikintisi haqqında həmin sərəncamın birinci bəndində «Ermənistan qaçqınları öz siyasi statuslarını, qaçqın statuslarını saxlayırlar» yazılıb: «Onların həmin torpaqlara dönmə ixtiyarları və imkanları qalır. Daxildəki torpaqlar işğaldan azad olunandan sonra yəqin ki, növbəti mərhələdə bu məsələ müzakirə olunacaq. Azərbaycan heç vaxt bu torpaqlardan əl çəkə bilməz. Ora bizim dədə-baba torpaqlarımızdır. Ermənilər orada dövlətlərini yaradıb, bizim insanları qovublar. Amma həmin ərazilər Azərbaycan torpaqlarıdır. Biz o ərazilərə müstəqil Azərbaycan torpağı kimi iddia etməsək də, insanlarımızın orada yaşamasına iddia edəcəyik», - deyə Ə. Həsənov bildirib.

Sovet İttifaqının son illərində Ermənistanda bir neçə yüz min azərbaycanlı qovulub. Onlar Azərbaycanın müxtəlif bölgələrində və şəhərlərdə məskunlaşıblar.

***Maarif Çingizoğlu***

# Qurban Nəzirov: «Dəmiryolunda tariflər dəyişməyəcək»

Azərbaycanın dəmiryolu sistemində sərnişin daşımaları ilə bağlı tariflərin dəyişməsi gözlənilmir. Bu barədə «APA»ya açıqlamasında «Azərbaycan Dəmir Yolları» QSC-nin baş mühəndisi Qurban Nəzirov məlumat verib. O deyib ki, hazırda dəmiryolunda çevik tarif sistemi qurulub və artıq burada ciddi dəyişikliyə ehtiyac yoxdur. Tarif (Qiymət) Şurası bu il fevralın 1-dən «Azərbaycan Dəmir Yolları» QSC-nin müraciəti əsasında ölkədaxili sərnişin daşıma xidmətlərinə tarifləri artırmışdı.

**AzadliqRadiosu.az saytında daimi rubrika:**



# "Kim nədən qurtulub?" sualına YAP-dan cavab


Bakıda Heydər Əliyevin posterlərindən biri

**1993-cü il iyunun 15-də Heydər Əliyev Azərbaycanda yenidən hakimiyyətə gəlib. O vaxtdan 15 iyun Azərbaycanda "Milli Qurtuluş Günü" kimi qeyd olunur. Amma bununla belə indi də Azərbaycanda "Qurtuluş günü"nə münasibət birmənalı deyil. Bu barədə AzadlıqRadiosunun suallarını o dönəmlər Heydər Əliyevin ikinci dəfə hakimiyyətə gətirilməsi üçün müraciət imzalayan "91-lər"dən biri, YAP Siyasi Şurasının üzvü Xeyrəddin Qoca cavablandırıb.**

*- Sizcə, Azərbaycanda bu qurtuluş nəyi ifadə edir, kim, nədən qurtulub?*

- Əgər o zaman Heydər Əliyev gəlməsəydi, Azərbaycan hətta əldə etdiyi müstəqilliyini belə itirə bilərdi. Çünki o dövrdə dövlət həyatının bütün sahələrinə hərc-mərclik sirayət etmişdi. Bir tərədən hakimiyyət uğrunda çəkişmələr, digər tərəfdən də təcavüzkar Ermənistanın bir-birinin ardınca torpaqlarımızı işğal etməsi ölkəni dağıdırdı. Real vətəndaş müharibəsi ilə üzbəüz dayanan Azərbaycan parçalanmanın astanasında idi... Belə bir zamanda Azərbaycanın xoşbəxtliyinə işıq sala bilən Heydər Əliyev hakimiyyətə qayıtdı. Onun gəlişi ilə torpaqlarımızın işğalı dayandırıldı, qısa bir zamanda ölkədə sabitlik yarandı. Siyasi böhran aradan qaldırıldı.

*- Belə iddialar da var ki, əslində Heydər Əliyev hakimiyyətə gələndən sonra Azərbaycanın daha 6 rayonu işğal edilib...*

- Yox. 6 rayon Heydər Əliyevin təqsiri ucbatından işğal olunmayıb. O vaxt Heydər Əliyev yenicə başlamışdı hər şeyə və dövlət qurmağa çalışırdı. Belə tez heç nə edə bilməzdi. Çünki rayonların bir-birinin ardınca işğal olunması prosesi ona qədər artıq başlamışdı.

*- 1993-cü il hadisələrində Heydər Əliyevin Surət Hüseynovla əlbir olduğunu deyirlər...*

- Qətiyyən belə deyil. Mən Naxçıvanda Heydər Əliyevin yanında olurdum. O hadisələr başlayanda Heydər Əliyev hətta Surət Hüseynov deyilən şəxsin kim olduğunu soruşdu. Heydər Əliyev Milli Məclisə gələndən sonra Surət Hüseynov ilə ünsiyyəti olub. Onu bu hərəkətlərdən daşındırmaq, düz yola dəvət etmək üçün.

*- Heydər Əliyev hakimiyyətə gələndən sonra Azərbaycanda rüşvətin, korrupsiyanın çiçəkləndiyini, ölkəni qanunlar deyil, monopolistlərin idarə etməsi haqqında da ittihamlar var. Sizin arqumentiniz nədir?*

- Monopolistlər dünyanın hər yerində var. Eləcə də rüşvət və korrupsiya. Amma bunu Heydər Əliyevin adı ilə bağlamaq düz deyil. Heydər Əliyev o şəxsdir ki, SSRİ-nin dövründə, heç kim belə şeylərdən danışmağa cəsarət etmədiyi vaxtda – 1969-cu ildə məruzə edərək rüşvətə qarşı çıxıb. İndi də prezident İlham Əliyev bu işi davam etdirir. Amma belə şeylərin qarşısı asanlıqla alınmır.

*- Dediniz 1993-cü ildə millətdə tezliklə torpaqların azad olunmasına ümid yarandı. Sizcə, "tezliklə" ifadəsi qüvvədə qalırmı?*

- Əlbəttə, o vaxt ümid yarandı. Və o ümid indi də var. Gec-tez biz bir millət, bir dövlət olaraq o torpaqları geri alacağıq. Prezident də buna çalışır. Heç bir prezident istəməz ki, onun ölkəsinin torpaqları işğal altında qalsın.

*- Daha bir iddia ondan ibarətdir ki, qurtuluş günü adlandırılan tarixdən başlayaraq vətəndaşların sərbəst toplaşma azadlığı məhdudlaşdırılıb.*

- Bilirsiniz, bunlar xırda məsələlərdi. Mən deyə bilmərəm ki, məhdudlaşdırılıb. Amma mitinqlər də icazə ilə olmalıdır. Xarici ölkələrdə də icazəsiz aksiyaları dağıdırlar. Özü də su şırnaqları və sairə ilə. Mən indi başıma 5-10 nəfər toplayıb gedim qatarların, mağazaların şüşələrini sındırım ki, aksiya keçirdirəm? Sərbəst toplaşma bu deyil axı. Düzdür, mən dövlətin vəzifəli adamı deyiləm buna cavab verim. Bizdə imkan verilsə, həbsdən adamı çıxardıb prezident seçərlər. Görmüsünüz, kimləri prezident seçmişdilər.

*Sizcə, seçkilərin saxtalaşdırılmasını nöqsan adlandırmaq olar, ya cinayət? Belə bir iddia var.*

- Mən o iddiada deyiləm ki, seçkilər saxtalaşdırılır. Görməmişəm də ki, Azərbaycanda seçkilər saxtalaşdırılır. Amma elə bir şeyin olmasını da istəmərəm.

*- Dövlət nə vaxt çiçəklənir, onu azad adamlar quranda, yoxsa yaltaq adamlar?*

- Əlbəttə, azad adamlar.

***İlqar Rəsul***

# Allahşükür Paşazadə Yerevana səfərə hazırlaşır



Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə və erməni apostol kilsəsinin başçısı ikinci Qaregin arasında səfərlər mübadiləsi Qarabağ nizamlanmasında yeni mərhələ yaratmağa imkan verəcək. Rus Pravoslav Kilsəsində belə hesab edirlər. "İndi biz Yerevanda MDB Dinlərarası Şurasının Rəyasət Heyətinin noyabrın 28-də keçiriləcək iclasını hazırlayırıq. Qareginin Bakıya gəlişi kimi bu səfər də şeyxin Ermənistana tarixi səfəri olacaq", - deyə Rus Pravoslav Kilsəsinin təmsilçisi Roman Silantyev "İnterfaks-Azərbaycan" agentliyinə müsahibəsində bəyan edib.

# Qapalı görüşlərdə müxalifət xaricilərə nə deyir?

**«İşdən sonra» proqramında AXCP sədri Əli Kərimli müxalifət nümayəndələrinin son vaxtlar xarici diplomatlarla görüşlərində toxunduqları məsələlərə aydınlıq gətirib. O bildirib ki, xarici diplomatik korpus nümayəndələrinin müxalifətlə görüşündə qeyri-adi heç nə yoxdur: «Beynəlxalq təşkilatların təmsilçilərinin İctimai Palata ilə artıq mütəmadi xarakter almış görüşlərinə qeyri-adi yanaşmaq lazım deyil. Çünki normalda azad dünyada olan mövcud qaydalara görə, iqtidar bu günün, müxalifət isə sabahın iqtidarıdır. Bu, bir protokoldur əslində, hər bir diplomat xidmət etdiyi ölkədə həm bugünkü, həm də gələcək hökumətlə əlaqələrə girməlidir. Bu, normal bir haldır».**

Əli Kərimli deyib ki, YAP-ın şantaj siyasəti bu görüşlərə təsir edə bilmədi. Çünki bu görüşlər intensivləşir.

YAP funksionerlərinin diplomatik korpus nümayəndəliklərinin bu addımını gülünc adlandırmasına gəldikdə isə, Əli Kərimli bildirib ki: «Gəlin baxaq görək, bu açıqlamadan sonra beynəlxalq təşkilatların, o cümlədən Qərb dövlətlərinin təmsilçilərinə gülən tapıldımı? YAP funksionerləri özləri gülünc vəziyyətdə qaldı. ATƏT, Avropa Birliyi, Avropa Şurası, ABŞ, Almaniya, Fransa, İngiltərə, Türkiyə, Polşa kimi qüdrətli dövlətlərin təmsilçiləri ilə bu dildə danışmaq hansı zehniyyətdən xəbər verir? Bu, daha çox hökumətin təlaşı ilə bağlıdır. Çünki onlara elə gəlirdi ki, Azərbaycan müxalifətini az qala məhv edəcəklər. İndi o alınmayıb, əksinə, müxalifət birləşərək hökumətə ciddi bir təhdid yaradıb və buna görə təlaş içindədirlər...».


Əli Kərimli

**Yazının tam mətnini AzadliqRadiosu.az-da oxuyun.**

***Xədicə İsmayılova, Kamran Mahmudov***

# Mitinqlərə münasibətdə niyə çözüm tapılmır?

**«Panorama» verilişində suallara «Xalq qəzeti»nin redaktor müavini Tahir Aydınoğlu və «Yeni Müsavat» saytının redaktoru Xalid Kazımlı cavab verir.**

Tahir Aydınoğlu:


Tahir Aydınoğlu

**«MÜXALİFƏT HAKİMİYYƏTDƏ OLARSA, O DA EYNİ İSTƏK ORTAYA QOYACAQ»**

- Bilirsiniz, məsələ belədir. Müxalifət özünə sərf edən yer istəyir. Bakı Şəhər İcra Hakimiyyəti də müxalifətə özünə sərf edən yer təklif edir. Şəhərin mərkəzində keçirilən hər hansı aksiya qığılcım rolunu oynaya bilər. Ancaq şəhərin kənarında bu, xeyli dərəcədə istisna olunur. Mənə elə gəlir ki, bugünkü müxalifət hakimiyyətdə olarsa, o da eyni istək ortaya qoyacaq. Həmişə müxalifətin gücü hakimiyyəti aşırı güzəştlərə sövq edir. Müxalifət umur ki, bu güzəştlər olsun. Ancaq güzəştə nail olmaq üçün müxalifətin gücü olmalıdır. Müxalifət bu gücü göstərmirsə, göstərə bilmirsə... Mən xatırlayıram, bir dəfə Ramil Usubov dedi ki, müxalifət bir meydana 80 min adam çıxarsa, biz bunu xalqın narazılığı kimi qəbul edərik və onu dağıda bilmərik. Ancaq 1000 nəfərə, 500 nəfərə icazə verilmirsə və onlar aksiya keçirməkdə israr edəcəklərsə, biz onları dağıdacağıq. Məsələ bitmir. Bir neçə dəfədir müxalifət şəhərin mərkəzində aksiyalara cəhd edir. Bunun nəticəsində həbs olunurlar. Onların ailəsi var. Güman etmirəm ki, hakimiyyət də prosesin belə gedişini arzulasın. Deməli, problem var və bu problem demokratik yolla həllini tapmalıdır.

**«HAKİMİYYƏT MÜXALİFƏTİ DAR ÇƏRÇİVƏDƏ SAXLAYIR VƏ ONA KİM OLDUĞUNU BU ŞƏKİLDƏ ANLATMAQ İSTƏYİR»**

Xalid Kazımlı:

- Hakimiyyət hesab edir ki, müxalifət «Azadlıq» meydanında mitinq keçirsə, ora əvvəlcə 2 min, 3 min adam gələcək. Sonra meydanın cazibəsindən ora 50 min, 80 min adam toplaşacaq. Nəticədə proses idarəolunmaz xarakter daşıyacaq. Hakimiyyət bu qorxudan da müxalifətə şəhərin mərkəzində aksiya keçirməyə icazə vermir. Müxalifətin «20-ci sahə»də «Sürücülük» meydanına getməməsi də ondan irəli gəlir ki, orada, ümumiyyətlə, kütləvi aksiya keçirməyə imkan yoxdur. Burada hakimiyyətin qəribə inadkarlığı özünü göstərir. Hakimiyyət müxalifətin fəaliyyətini çərçivəyə almaq istəyir. Yəni müxalifəti dar çərçivədə saxlayır və ona kim olduğunu bu şəkildə anlatmaq istəyir. İndi mitinqlərə müxalifət partiyalarından ən sədaqətli, bir növ fanat insanlar gedir. Orada-burada narazılar, hər gün Prezident Administrasiyasının qarşısına toplaşan insanlar isə hələ gözləmə mövqeyi tutur. Böyük meydanlarda icazəli aksiyalara şərait yaransa, onlar da meydana gələcəklər. İndi Ermənistanda Yerevanın mərkəzində aksiyalara icazə verilir. Bununla orada hakimiyyət dəyişəcəkmi? Görükən odur ki, demokratiya sarıdan Ermənistan bizi qabaqlayır.

***Babək Bəkir***


**AzadliqRadiosu.az saytında daimi rubrika:**




**«İşdən sonra» verilişinə müzakirə mövzusunu Siz təklif edin:**

**Telefon: (+99412) 436-77-41**
**SMS: (+99450) 744-10-17**
**E-mail: efir@azadliqradiosu.az**
**azadliq@rferl.org**

# Может ли человек обрести свободу в несвободной стране?



Эйнулла Фатуллаев

**...С того дня, как я на свободе, чувствую себя в плену мифологической, надуманной свободы и стараюсь найти ответ на новый вопрос моей новой жизни: может ли человек обрести свободу в несвободной стране?**

И как жить дальше в несвободной стране человеку, который обрел нежданную, но заветную свободу. Может, мы до сих пор не в силах осознать и осмыслить свободу, фундаментальную ценность великой старушки-Европы, потому что изнывали и продолжаем страдать в тисках азиатских владык, вооруженных по-прежнему, татарской нагайкой Орды? Но на наших глазах эта кровавая нагайка хрустит и разламывается под ногами арабской интеллигенции, которая вздохнув глоток европейской свободы, решилась покончить с призраком деспотичного халифата, некогда восставшего в лице помазанников-владык, «спасителей» и «избавителей» порабощенных народов. Значит, все же стоит жить и верить. Жить и бороться. И может быть, наша вера приблизит день избавления.

А пока наступил день избавления всего-навсего одного азербайджанца, одного журналиста, одного человека. Со дня освобождения я неустанно повторяю афоризм, придуманный азербайджанскими диссидентами: «В отличие от европейца, продолжающего бороться до победного результата, азербайджанец, прекращает борьбу после первого отчаяния».

Мы должны научиться у европейцев, философии мирной и ненасильственной борьбы за торжество наших с вами ценностей, ибо тот, кто разделяет Азербайджан и Европу, обрекает на себя страшное и чудовищное нефтяное проклятие. Я избавлен и с чувством глубокой признательности хочу обратиться к моим спасителям - Томасу Хаммербергу и Торнбьорну Ягланду, Миклошу Харашти и Дунье Миятович, Питеру Семнеби и Мэтью Брайзе, Amnesty International и Норвежской Хельсинкской группе, наконец, всем моим коллегам из западных стран, и еще раз сказать – Спасибо Вам, что помогли мне вновь почувствовать время, увидеть Солнце...

Конечно, если бы вас не было, если бы не было Совета Европы, возможно, когда-нибудь, спустя много лет, я прикоснулся бы к свободе. Но с вашей помощью мы приблизили этот день, вы не позволили стереть меня и превратить в лагерную пыль. Вы сделали сказку былью. Так сможет ли свободный человек прожить в несвободной стране? Сможет. Если поверит в сказку, в которой Зло никогда не побеждает.

# Партбилет "сдан" на могилу Гейдара Алиева



*Мать осужденного молодежного активиста Бахтияра Гаджиева - Солида Мовлаева «сдала» свой билет члена правящей партии "Ени Азербайджан"(ПЕА) на могилу экс-президента Азербайджана Гейдара Алиева. Она заявила, что покидает ряды ПЕА в знак протеста против лишения свободы ее сына. После этого сотрудники спецслужбы госохраны задержали мать Бахтияра Гаджиева и сотрудника Института свободы и безопасности репортеров (ИСБР).*

По сообщению корреспондента РадиоАзадлыг с места события, сотрудники службы охраны отметили, что Солида Мовлаева и сотрудник ИСБР задержаны для разъяснений. После получасового допроса матери Бахтияра Гаджиева было заявлено, что «партбилет будет передан исполнительному секретарю ПЕА Али Ахмедову». Затем Солида Мовлаева была освобождена.



Неймат Панахлы

# Глава партии получил 6 лет

*17 июня в Насиминском суде Баку был оглашен приговор председателю Партии Национальной государственности Азербайджана (ПНГА) Неймату Панахлы. Суд признал Панахлы виновным в хулиганстве и причинении телесных повреждений и осудил его к 6 годам лишения свободы. Его деловой партнер - Джейхун Фарзуллаев осужден на 4 года тюремного заключения. Обвинение ранее просило суд приговорить Панахлы к 7,5 годам лишения свободы, а Фарзуллаев - 5 годам. Протестуя против приговора, Панахлы стал декламировать критическое стихотворение в адрес экс-президента Гейдара Алиева, игнорируя требование судьи прекратить, отмечает агентство Turan.*

Родные и близкие Панахлы считают, что «истинной причиной» его ареста стало интервью в местной газете, в котором Панахлы «жестко критиковал правящую элиту».

# МВФ предупредил о рисках для мировой экономики

Международный валютный фонд (МВФ) предупредил в пятницу об "очевидных рисках" для мировой экономики. По словам директора департамента исследований МВФ Оливье Бланшара, риски связаны, в частности, с сохраняющейся угрозой дефолта в ряде европейских стран, возможным перегревом экономик развивающихся государств, а также прогнозами слабого экономический роста в Соединенных Штатах.

# ABŞ rəsmisi: "Azərbaycan hökuməti müasirləşməlidir"


Tomas Melia

**«Rəsmilərlə görüşdə ən çox vurğuladığım bu olub ki, ABŞ ən yaxşı əməkdaşlığı demokratik ölkələrlə, öz hüquqlarını müdafiə edən ölkələrlə qurur». ABŞ dövlət katibinin demokratiya, insan haqları və əmək məsələləri üzrə köməkçisinin müavini Tomas Melia (Thomas O. Melia) iyunun 16-da jurnalistlərin sualını cavablandırarkən belə deyib. O bildirib ki, rəsmilərlə görüşdə azərbaycanlı həmkarlarını insan haqlarına daha çox hörmət etməyə və siyasi sahədə açıq olmağa çağırıb.**

Səfərinin məqsədinə toxunan T.Melia ABŞ dövlət katibi Hillari Klinton və ABŞ prezidenti Barak Obamanın ABŞ-ın Azərbaycandakı səfiri Metyu Brayzaya və səfirliyə dəstəyini ifadə etmək olduğunu deyib.

**ABŞ DİPLOMATI ELMAR HÜSEYNOVUN MƏZARINI ZİYARƏT EDİB**

İyunun 15-dən Bakıda səfərdə olan diplomat dövlət rəsmiləri, vətəndaş cəmiyyətinin nümayəndələri, siyasi partiyaların rəhbərləri və media nümayəndələri ilə görüşüb. Həmçinin 6 il əvvəl qətlə yetirilən jurnalist Elmar Hüseynovun qəbrini ziyarət edib, yenicə əfv fərmanı ilə azadlığa çıxan baş redaktor Eynulla Fətullayevi qəbul edib. O bildirib ki, demokratiyanın inkişaf etdirilməsi və insan hüquqlarına hörmət hər zaman ABŞ hökumətinin gündəliyində duran məsələlərdəndir.

**«AZƏRBAYCAN HÖKUMƏTİ MÜASİRLƏŞMƏLİDİR»**

Tomas Melia qeyd edib ki, Azərbaycanda insan haqlarının vəziyyəti daha yaxşı ola bilər. Əgər Azərbaycan hökuməti də ABŞ dövləti ilə əlaqələrini gücləndirmək istəyirsə, bu sahədə çalışmalıdır: «Bir sıra jurnalist və insan haqları ilə məşğul olan təşkilatların hesabatları var. Bu hesabatlardan aydın olur ki, istər ədalətli seçkilər, istər azad media və istərsə də müxalifət partiyalarının işləməsinə müəyyən maneələr vardır. Bu sahədə də Azərbaycan hökuməti müasirləşməli və 21-ci əsrdə müasirləşməklə uğur qazanmış dövlətlər sırasına keçməlidir».

Dövlət Departamenti rəsmisi Azərbaycanla bir sıra sahələrdə əməkdaşlıq edildiyini, gələcəkdə də bu əməkdaşlığın davam etdiriləcəyini bildirib. Dövlət katibinin köməkçisinin müavini Azərbaycan rəsmiləri ilə görüşdə İctimai Palatanın icazəsiz aksiyaları zamanı saxlanan siyasi fəallar və bloggerlərin həbsi ilə bağlı məsələləri qaldırdığını da deyib. O,həmçinin iyunun 15-də Bakıda döyülən əcnəbi jurnalistlərdən də xəbərdar olduğunu və bu işlə ABŞ səfirliyinin məşğul olduğunu qeyd edib.

**«AZADLIQRADİOSUNUN YAYIMLANMAMASI ÜÇÜN SƏBƏB GÖRMÜRƏM»**

«Bəs dövlət rəsmiləri ilə görüşdə «Azadlıq» və «Amerikanın Səsi» radiolarına FM tezliyinin qaytarılması müzakirə edilibmi?» sualına T. Melianın cavabı belə olub: «Amerikanın səsi və AzadlıqRadiosunun böyük əhəmiyyəti olduğundan bu məsələlər qaldırılıb. AzadlıqRadiosunun burda yayımlanmaması üçün əsaslı səbəb görmürəm».

***Sevinc Hüseynzadə***

# Həkimeldostu Mehdiyev: «Həmin adam butulka ilə başıma vurdu»

**Naxçıvanlı hüquq müdafiəçisi Həkimeldostu Mehdiyev bildirir ki, Sədərək gömrük məntəqəsində onu döyüblər.**

Həkimeldostu Mehdiyevin dediyinə görə, Naxçıvan sakini Əhməd Sultanov Türkiyədən ərzaq gətirərkən Sədərək gömrüyündə saxlanılıb. Onun gətirdiyi ərzaq məhsulları isə gömrük işçiləri tərəfindən müsadirə olunub. Hüquq müdafiəçisi deyir ki, Naxçıvan sakini məsələnin qanuni tərəfini araşdırmaq üçün onu gömrüyə çağırıb: «Əhməd Sultanov mənə zəng eləyib bildirdi ki, üç nəfər ailə üzvü ilə birgə oğlunun toy mərasimi üçün Türkiyədən gətirmək istədiyi ərzaqları Sədərək gömrüyündə müsadirə ediblər. Bir hüquq müdafiəçisi kimi məsələni araşdırmaq üçün gömrüyə gəldim. Gömrük işçilərindən müsadirə olunan malları göstərmələrini tələb etdim. 20 kq toyuq, 30 kq kartof, 10 kq üzüm, 20 ədəd meyvə şirəsi, bir də yumurta idi. Gömrük işçiləri mənə dedi ki, bu ərzaqlar məhdudlaşdırılmış məhsullar siyahısındadı. Mən qadağan olunan məhsulları siyahısını tələb edəndə yumruqla sinəmdən vurub, məni bayıra itələdilər. Sonra bir nəfərə göstəriş verdilər ki, məni döysün. Həmin adam butulka ilə başımdan vurdu».

**POLİS: "GÖMRÜK İŞÇİLƏRİNƏ GÜCÜMÜZ ÇATMIR"**

Həkimeldostu Mehdiyevin deməsinə görə o, dərhal üzləşdiyi təzyiqlə bağlı Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin 155 qaynar xəttinə zəng edib: «Sədərək rayon polis


Həkimeldostu Mehdiyev.
Arxiv foto (31 yanvar 2009)

bölməsindən bir nəfər zabit göndərdilər. Məni döyənləri ona göstərdim. O mənə dedi ki, bizim gömrük işçilərinə gücümüz çatmır. Yaxşı olar ki, prokurorluğa müraciət edəsən. Sonra isə çıxıb getd».

Həkimeldostu Mehdiyev isə hüquqlarının qorunması üçün Sədərək Rayon Prokurorluğuna müraciət edəcəyini bildirir.

***Yafəz Əkrəmoğlu***

# Ağsuda polis niyə intihar edib?


Arxiv foto

**İyunun 9-da Ağsu rayonunda yol polisi əməkdaşı, 26 yaşlı polis serjantı Asim Baxşıyev polis şöbəsinin qarşısında xidməti maşında tabel tapançası ilə atəş açaraq özünü öldürüb. Faktla bağlı rayon prokurorluğunda Cinayət Məcəlləsinin özünü öldürmə həddinə çatdırma (125-ci maddə) maddəsi ilə cinayət işi başlanılıb, istintaq gedir. Hələ ki, baş verən hadisə ilə bağlı rəsmi məlumatlar bundan ibarət olsa da, intihar edən polisin yaxınları bəzi aşıqlamalar verməkdədirlər.**

**«8 AY ƏVVƏL RƏİS QARDAŞIMA TƏKLİF EDİB Kİ...»**

İntihar edən polis serjantının qardaşı Rafael Baxşiyev AzadlıqRadiosuna müsahibəsində deyib ki, qardaşı polis rəisi ilə aralarında gedən bir söhbətin güdazına gedib. Onun deməsinə görə, təxminən 8 ay əvvəl polis rəisi qardaşına təklif edib ki, onlarla çalışan bir polis əməkdaşının üzünə dursun. Rafael Baxşıyev iddia edir ki, rəis qardaşını dəfələrlə bu işə məcbur etsə də, o, hər dəfə rəisin göstərişindən imtina edib: «Qardaşım iş yoldaşının üzünə durmayıb. Ondan sonra qardaşımı mütəmadi sıxışdırmağa başlayıblar ki, səni burda işləməyə qoymayacağıq».

**«ELƏ BİL, BU, QURULMUŞ İŞDİR»**

Qardaşına qarşı təzyiqlərin hər gün davam etdiyini deyən Rafael Baxşıyevin sözlərinə görə, sonuncu dəfə - elə intihar etdiyi gün rəis onun qardaşını öz növbəsi olmadığı halda gecə növbəsinə göndərib: «Qardaşım 2-3 ildir yol polisində işləyir və indiyə qədər heç vaxt silah götürməyib. Elə bil, bu, qurulmuş işdir. Həmin gün ona nizamnamə ilə məcbur edib silah götürdüblər. Ondan sonra bizə də heç bir söz deməyib və polis bölməsinin qarşısında xidməti maşında özünü güllələyib».

**MAAŞDAN HƏR AY 250 MANAT**

Rafael Baxşıyev iddia edir ki, rəis qardaşından qanunsuz pul da istəyirmiş: «Qardaşım gəlib evdə deyirdi ki, rəis mənə deyir «kiminsə yaxşı pulu var, get onu şərlə». O da elə şeylərə tab gətirmirdi, dəfələrlə deyirdi ki, onu bezdiriblər, işdən çıxacaq. Ölkədə korrupsiyaya qarşı mübarizə başlayıb, amma onların maaşından hər ay 250 manat pul tutulurdu».

Rafael Baxşıyev bildirdi ki, qardaşı evdə deməsə də, bəzi iş yoldaşlarına bezdiyini və sonda özünü öldürəcəyini söyləyibmiş.

**«KİMLƏR NƏ DEYİRSƏ, HAMISI ARAŞDIRILMAQDADIR»**

İşi aparan müstəntiq Teymur Əsədov AzadlıqRadiosuna deyib ki, istintaq sirri olduğundan, o, baş verən hadisə ilə bağlı detallı danışa bilməyəcək, amma zərərçəkən tərəfdən nə deyilirsə, hamısı araşdırılmaqdadır. Onun sözlərinə görə, baş verən hadisəyə görə hələ heç kim saxlanmayıb.

**HƏQİQƏTDƏN UZAQ FİKİR...**

Zərərçəkən tərəfin polis serjantını intihar həddinə çatdırmada ittiham etdiyi Ağsu Rayon Polis Şöbəsi rəisinin məsələyə mövqeyini öyrənə bilmədik. Daxili İşlər Nazirliyində isə hesab edilər ki, Ağsu Rayon Polis Şöbəsinin rəisi barədə deyilənlər həqiqətdən uzaq, şayiə xarakterli fikirlərdir. Nazirlik rəsmisi Orxan Mansurzadəyə görə, faktla bağlı rayon prokurorluğu araşdırmaya başladığından hər şeyə də prokurorluq aydınlıq gətirəcək.

***Maarif Çingizoğlu***

# Nəzir qutularına son qoyulacaq



Dini qurumlara edilən ianələr nəzarətə götürülür

**Milli Məclisin iyunun 10-da keçirilən iclasında "Dini etiqad azadlğı haqqında" qanuna əlavə və dəyişikliklər qəbul edilib. Dəyişikliyə görə, İslam dini icmaları bundan sonra Qafqaz Müsəlmanları İdarəsinə hesabat verəcəklər. Sənədə dəyişikliklərdən biri də dini qurumların mülkiyyəti ilə bağlıdır. Qəbul edilən dəyişikliyə görə, dini mərkəzlər və idarələrin maliyyə vəsaiti bu qanunun tələbləri nəzərə alınmaqla, əldə edilən vəsait həmçinin fiziki və hüquqi şəxslərin dini qurumlara və ziyarətgahlara könüllü ayırmaları nəticəsində yaranır.**

Milli Məclisin İnsan Hüquqları Komitəsinin sədri Rəbiyyət Aslanova əmindir ki, Azərbaycanda nə vaxtsa hansısa məscidə, dini mərkəzə nəzir verməyən şəxs tapılmaz: "Bu, insanın qəlbindən gələn könüllü yardımdır. Bu ayırmalar üzərində nəzarətin olması, bu maliyyə vəsaitinin hara getməsinə əlaqədar olaraq bu müddəa daxil edilib. Bununla da artıq nəzir qutusu və digər məsələlərə birdəfəlik son qoyulacaq".

"Dini etiqad azadlığı" haqqında qanuna ümumilikdə 19 dəyişiklik edilib.



Müdriklər

# «Washington Post»: «Eurovision» Azərbaycanı dəyişəcəkmi?


Bakıda «Eurovision» şənlikləri - 15 may 2011

**Rusiya və İran arasında yerləşən bu avtoritar ölkə ötən ay «Eurovision» müsabiqəsində qalib gəlib. İndi azərbaycanlıları bir sual düşündürür - rok-n-rol onları azad edəcəkmi? «Eurovision» qələbəsi özünə az qiymət verildiyini düşünən bu millətə təkcə qürurdan başgicəlləndirmə gətirmədi. Mayda Bakı 43 ölkənin təmsilçisinin konsertini təşkil edəcək. Bunun üçün yuxarı eşelondan tolerantlıq tələb olunur - narıncı saçlı və yaşıl sağanaqlı eynək taxmış fanatları təsəvvür edin. Təbii ki, həm də sərhədsiz söz azadlığı lazımdır. Bu il Düsseldorfda «Eurovision» konsertinə 36 000 adam canlı baxıb, 120 milyon tamaşaçı isə yarışmanı televiziya və internetdə izləyib.**

Azərbaycanda hökumətin tənqidçiləri Avropanın qəfil diqqətindən və hakimiyyətin dostluq istəyindən istifadə edib demokratik islahatlara çağırırlar. Hakimiyyət jurnalistləri, opponentlərini həbs edir. Tunis və Misirdəki iğtişaşlardan sonra mart və apreldə gənclərin Bakıda təşkil etdiyi nümayişləri dağıdıb. «Bilirsiz ki, rok azad adamların musiqisidir». 30-dan çox vətəndaş cəmiyyəti üzvü mayın 26-da Prezident İlham Əliyevə məktub göndərərək «Eurovision»dan əvvəl jurnalistləri və insan haqları fəallarını buraxmağı xahiş etmişdilər.

ABŞ səfiri Metyu Brayza isə jurnalist Eynulla Fətullayev azadlığa buraxılanda, demişdi ki, «ümid edirəm bu, Azərbaycan üçün yeni eranın başlanğıcıdır. «Eurovision-2012»yə hazırlığa başlamaq üçün çox gözəl bir yoldur».

### «BURDA QAZANMAĞA PUL VAR»

Dünyəvi müsəlman ölkəsi olan Azərbaycan bir əlini inamla Avropa və Qərbə uzatsa da, o biri əli ölkə daxilində hakimiyyət və sərvətə nəzarət edir. Enerji təhlükəsizliyi və strateji mövqeyi Azərbaycanı Birləşmiş Ştatlar üçün də əhəmiyyətli edir. Bakı-Tbilisi-Ceyhan neft kəməri sutkada bir milyon barel neft vurur. Bununla da Qərbin enerji təchizatı şaxələnir və Yaxın Şərqdən enerji asılılığı azalır.

Burda qazanmağa pul var, bu pul bütün Bakı üzərində hiss olunur. Şəhər boyu gözəl mənzərəli parklar, beşulduzlu otellər, «Kenzo», «Armani» və «Escada» mağazaları...

«Pizza Hat» olan şəhəri sevəcəksiz, ancaq Bakının gözəlliklərindən başqa, gözə görünməyən məqamlar da var – «Facebook» şəbəkəsində oturanlarla onları idarə edənlər arasında mübarizə gedir. Bu mübarizə Qərbə qovuşmaq istəyənlərlə buna şübhəylə yanaşanlar arasındadır.

### GƏNCLƏRİN XEYRİNƏ

Rəqəmlər və zaman gənclərin xeyrinədir. 9 milyonluq bu ölkədə orta yaş həddi 30-dan azdır. Son üç ay ərzində «Facebook» istifadəçilərinin sayı 20 faiz artıb, 400000-ə çatıb. Ancaq hökumətin əlində də hakimiyyət var. Reportyorların Azadlıq və Təhlükəsizliyi İnstitutunun sədri Emin Hüseynov deyir ki, onda barəsində təhqiqat aparılan, yaxud həbsdə olan 50 fəalın siyahısı var:

«Tunis və Misirdə inqilablardan sonra burda vəziyyət dramatik dəyişib». E. Hüseynov belə deyir. «Əvvəlcə, hökumət əhalini ələ almaq üçün antikorrupsiya kampaniyasına başladı, ancaq sonradan Suriya etirazçılara hücuma keçdi, misirlilər isə prezidentlərini qovub həbs etdilər. İndi Azərbaycanda düşünürlər ki, həbs elə də pis variant deyil», - Hüseynov əlavə edir.

### HƏR YERDƏ HEYDƏR ƏLİYEV

Bütün ictimai binalarda Heydər Əliyevin portreti var...

Parlament üzvü Səməd Seyidov deyir: «Ermənistanda deputatlar həbsə düşür, ancaq heç kəs demir ki, onlarda siyasi məhbus var. Bizə isə deyirlər ki, bizdə siyasi məhbus var. Bu, ədalətli deyil».

«Bütün ölkələrin qüsurları var, ancaq xahiş edirik, digərlərini də görün». Bunu isə Prezident Administrasiyasının xarici əlaqələr şöbəsinin müdiri Novruz Məmmədov deyir.

### «HƏR ŞEY DƏYİŞƏCƏK»

Qarşıdan isə 1956-cı il tarixli «Eurovision» müsabiqəsi gəlir.

Bu il 22 yaşı tamam olan, yarışmada Ell adıyla çıxış edən Eldar Qasımov saçı gelli universitet məzunudur. Nikki


Gənclərin 11 mart aksiyası

ləqəbli, 30 yaşlı, sarışın və gözəl, iqtisadçı dərəcəsi olan ev qadını Nigar Camalın isə 2 azyaşlı uşağı var. Onlar Bakıda «Eurovision»un final mərhələsində görüşüblər. Azərbaycan onları duet kimi gördü və isveçli komandaya «ooh-ooh-ooh» sözləri geninə-boluna işlənən bir mahnı yazdırdı. Duetə deyəndə ki, millətin azadlıq və demokratiya ümidləri onlardan asılıdır, hər iki gənc diksinmiş kimi göründü.

«Bu, hər şeyi dəyişəcək» - News.Az agentliyinin baş redaktoru Elnur Baimov deyir: «Taksi sürücüləri ingilis dili kurslarına gedir. Daha sonra polis gedəcək. Azərbaycan bütün dünyaya açılacaq».

***Keti Lalli (Kathy Lally, «Washington Post»)***

# Azərbaycanda hansı xəstəlikdən nə qədər insan ölür?

**Azərbaycanda ölüm hallarının yarısından çoxu ürək-damar xəstəlikləri səbəbindən baş verir. Dövlət Statistika Komitəsinin məlumatına əsasən, 2010-cu ildə qan dövranı sisteminin xəstəliklərindən 32554 nəfər vəfat edib. Bu, əhalinin hər 100 min nəfərinə hesabı ilə 364 ölüm deməkdir. Habelə,**

2010-cu ildə:

şəkərli diabet xəstəliyindən - 1060, böyrək çatışmazlığı xəstəliyindən – 428, bədxassəli şişlərdən – 6616,

vərəm xəstəliyindən – 709, qaraciyər xəstəliyindən - 2731 adam ölüb.




# Prezidentin Fərdi təqaüdü 1000, Milli Qəhrəman təqaüdü 594 manat...

| TƏQAÜDÜN ADI | TƏQAÜDÜN ORTA AYLIQ MƏBLƏĞİ, MANAT | TƏQAÜD ALANLARIN SAYI, NƏFƏR |
|---|---|---|
| «Xalq» Fəxri adlarına görə | 50.00 | 163 |
| «Əməkdar» Fəxri adlarına görə | 30.00 | 1 515 |
| Azərbaycan Respublikası Prezidentinin təqaüdləri: | | |
| Fərdi təqaüdlər | 1 000 | 467 |
| Milli Qəhrəmanı adı verilmiş şəxslərə | 593.58 | 187 |
| 20 Yanvar faciəsi zamanı şəhid olanların ailələrinə | 255.93 | 135 |
| Şəhid ailələrinə | 137.30 | 13 704 |
| Müharibə əlillərinə: | | |
| Böyük Vətən Müharibəsi əlillərinə | 77.94 | 1 673 |
| Çernobıl AES-də hərbi xidmətlə əlaqədar əlil olanlara | 69.90 | 2 626 |
| Hərbi xidmət vəzifələrini yerinə yetirərkən əlil olanlara | 67.93 | 2 157 |
| Azərbaycan Respublikasının müdafiəsi zamanı əlil olanlara | 67.48 | 11 035 |

**Azərbaycanda ən yüksək fərqlənmə dərəcəsi "Azərbaycanın Milli Qəhrəmanı" hesab edilir. Onun əsasnaməsində yazılır: ""Azərbaycanın Milli Qəhrəmanı" adı respublikanın ən yüksək fərqlənmə dərəcəsidir, Azərbaycan Respublikasının müstəqilliyi və tərəqqisi naminə xalq qarşısında müstəsna xidmətlərə və rəşadətə görə verilir." Statistika Komitəsinin rəsmi məlumatına görə isə, Prezidentin Fərdi təqaüdü Milli Qəhrəman üçün verilən təqaüddən az qala iki dəfə çoxdur.**

Bu xəbərə Komitənin "2011-ci il yanvar ayının 1-i vəziyyətinə Azərbaycan Respublikası qarşısında xüsusi xidmətlər göstərmiş şəxslərə təyin edilən təqaüdlər" adlı məlumatında rast gəldik:

Bu rəsmi məlumata görə, ölkədə məbləği ən çox olan Prezidentin Fərdi təqaüdləridir. Prezidentin sərəncamları ilə həmin təqaüdə layiq görülən adamlar ömürlərinin sonuna qədər dövlət büdcəsindən ayda 1000 manat alırlar.

2002-ci ildə bu təqaüdlərinin sayı 150 idi, hazırda isə 500-dür. Onun da 467-sinin sahibi artıq bəllidir, bundan sonra daha 33 nəfərə belə təqaüd verilə bilər. Amma zərurət hiss edəndə prezident öz sərəncamları ilə onların sayını və məbləğini artırır.

# Şıx və Sahil çimərlikləri yararsızdır

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Abşeron yarımadasında kanalizasiya şəbəkəsi olmayan Bilgəh, Buzovna, Mərdəkan, Pirşağı, Nardaran sahil zolaqlarında, "Amburan" çimərliyində, Novxanı və Corat bağlarının sahil ərazilərində 17 modul tipli sutəmizləyici qurğular quraşdırıb.**

Nazirliyin mətbuat xidməti bildirir ki, qurğuların quraşdırıldığı ərazilərdə aparılan monitorinqin nəticələrinə görə, 2007-ci illə müqayisədə mikrobioloji baxımdan çirklənmənin qarşısı alınıb.

Su təmizləyici qurğuların quraşdırılmadığı Şıx və Qaradağ rayonunun Sahil qəsəbəsinin çimərlik ərazilərində isə bu il də mikrobioloji baxımdan çirklənmə qeydə alınıb. Bu ərazilərdə böyük həcmlə axıdılan tullantı suları norma və standartlara uyğun təmizlənmədən dənizə axıdılır. Buna görə də həmin ərazilərdə bağırsaq çöpü bakteriyalarının miqdarı normadan artıqdır.




2010-cu ildə Mərdəkan sahil zolaqlarında çimmək qəti qadağan idi, amma...

# Bakıda tualet axtaranlar



İctimai tualet

**Günün günorta çağı Bakıda ayaqyolu axtaran qızlar - Nailə ilə Sevinc şəhərin mərkəzindəki Nizami küçəsindən tualet sorağı ilə Bakı Bulvarına gəlmişdilər. Çünki Bakıdakı ictimai tualetlər əsasən bulvar ərazisindədir. Nailə ilə Sevincin gəldiyi küçədə isə düz bir il əvvələ qədər tualet var idi.**

**TUALET HARA YOXA ÇIXIB?**

Fəvvarələr bağında kişi və qadın tualetlərinin olması Bakı sakinlərinin yadındadır. Qiyməti də 20 qəpik idi. Bir il əvvəl Fəvvarələr bağı təmir edildi və ... həmin tualet də yoxa çıxdı. İndi o tualetin yerində fəvvarələrin nasosxanası yerləşir. Ərazidə təmizlik işləri ilə məşğul olan qadınlardan biri deyir ki, gündə neçə adam ondan tualetin yerini haqqında soruşur: «İndi adamlar məndən soruşur, deyirəm, bağlayıblar. Böyük-kiçik, kişi-qadın, çox adam soruşur, deyirəm yoxdur. Deyirlər «bəs, siz neyləyirsiz?», deyirəm ki, «biz də sizin kimi».

**BİR TUALETİN SORAĞINDA**

Fəvvalər bağında tualetin niyə ləğv olunmasını öyrənmək üçün Bakı Şəhər İcra Hakimiyyətinə zəng etdik. Dedilər ki, təsərrüfat şöbəsi ilə əlaqə saxlamalıyıq. Təsərrüfat şöbəsindən isə dedilər ki, ərazi hansı rayonda yerləşirsə, həmin rayon icra hakimiyyəti ilə əlaqə saxlamaq lazımdır. Fəvvarələr bağı Səbayel rayonunun ərazisində olduğundan həmin rayonun icra hakimiyyəti ilə əlaqə saxladıq. Burdan bizə ictimai-siyasi təşkilatlarla iş şöbəsi ilə danışmağı məsləhət gördülər. Həmin şöbədən isə heç kim telefon götürmədi. Təsərrüfat şöbəsində də cavab verən tapılmadı. Ərazi idarəetmə orqanları ilə iş şöbəsindən isə dedilər ki, Fəvvarələr bağı burda yerləşsə də, bu Səbayel Rayon İcra Hakimiyyətinə aid olan məsələ deyil.

**HAMI BULVARA**

Dənizkənarı Bulvar İdarəsinin rəis müavini Nazim Məcidov deyir ki, qiymət artımına bir neçə ay qabaq suyun bahalaşması səbəb olub: «Orada da ən çox xərc suya gedir. Girən-çıxan əlini yuyur və digər məqsədlər üçün sudan istifadə edir. Ona görə zaman özü məcbur elədi ki, 10 qəpik bahalaşsın. Əvvəl 20 qəpik idi, indi 30 qəpikdir. Başqa yerlərdə ondan da baha tualetlər var».

Dənizkənarı parkda 5 yerdə ictimai tualet var. Nazim Məcidovun bildirdiyinə görə, bulvarın ərazisi genişləndikcə, ictimai tualetlərin sayı da artırıla bilər.

**NİYƏ O TUALETDƏN BİZDƏ YOXDUR?**

Yazar Murad Köhnəqala bir neçə dəfə Bakıda tualet problemi mövzusuna müraciət edib. Deyir ona görə ki, doğrudan da yazılmalı mövzudur. Yazar gileylənir ki, şəhərdə fəvvarələr quraşdırırlar, köhnə parklara əl gəzdirirlər, ancaq tualet tikmək yaddan çıxır:

«Şəhərin lazımlı yerlərində tualet yoxdur. Çox vaxt elə olub ki, məcbur olub kafelərə gedib xahiş etmişəm. Kafelərdə də hamısında tualet olmur. Kafedə də gərək ya tanışın olsun, ya da elə-belə buraxmırlar. Deyirlər mütləq burda yeyib içməlisən ki, sonra tualetimizə gedəsən. Mən tualet haqqında bir neçə dəfə yazmışam. Çünki Moskvadakı, Daşkənddəki tualetləri görmüşəm. Moskvanın aeroport tualetində paltar ütüləməyə, ayaqqabı təmizləməyə, tikiş tikməyə belə yer var. Bizdə isə tualetin özünü axtarırsan».

***Kəbiran Dilavərli***

# Azərbaycana 60 minə yaxın turistin gələcəyi gözlənilir

*«Eurovision» mahnı yarışması zamanı Azərbaycana 60 minə yaxın turistin gələcəyi gözlənilir. Bu barədə jurnalistlərə Mədəniyyət və Turizm naziri Əbülfəs Qarayev məlumat verib. O deyib ki, indi təşkilat komitəsi hazırlıqla bağlı işlər aparır. Yaxın vaxtlarda mahnı yarışmasının keçiriləcəyi yer barədə də müvafiq qərar qəbul ediləcək. Ə. Qarayev xidmətin səviyyəsinin yüksəldilməsi üçün otellərə müvafiq tapşırıqlar verildiyini bildirib. Sentyabradək bütün otellərdə «on-line» qeydiyyat prosesi yaradılacaq.*

Ə. Qarayev hazırda Bakıda 6 yeni 5-ulduzlu mehmanxananın tikildiyini də bildirib. Həmçinin 6 ucuz – hostel tipli motelin istifadəyə verilməsi planlaşdırılır. Nazir əlavə edib ki, yarışma dövründə turistlərə Bakıdakı restoranlarda Azərbaycan milli mətbəxinin nümunələri ilə tanış olmaq imkanları yaradılacaq. Həmçinin otellərin işçi heyətləri üçün treninqlər təşkil olunacaq.

***APA***



Əbülfəs Qarayev

# Rusiyada məhsullarımızın satışı kəskin artıb



**Avropa ölkələrindən Rusiyaya tərəvəz idxalına qadağa qoyulması nəticəsində Rusiya bazarında Azərbaycanın kənd təsərrüfatı məhsullarının satışı 2-3 dəfə artıb.**

Bu barədə Kənd Təsərrüfatı nazirinin müavini Bəhram Əliyev bildirib. O deyib ki, əvvəllər Rusiya bazarında Azərbaycanın kənd təsərrüfatı məhsullarının satış həcmi təxminən 10-20% idisə, hazırda bu, 40-50%-ə çatıb. B.Əliyev qeyd edib ki, Azərbaycana xarici ölkələrdən meyvə-tərəvəz gətirilməsinə ehtiyac yoxdur: «Azərbaycan özünün meyvə-tərəvəzə olan tələbatını 100%-dən çox təmin edir».

***APA***

# Musa Əfəndi «Ədəbi Azadlıq-2011» hekayə müsabiqəsinin qalibidir




**AzadlıqRadiosunun təşkil etdiyi və Azərbaycanın dövlət müstəqilliyini bərpa etməsinin 20-ci ildönümünə həsr edilən “Ədəbi Azadlıq” hekayə müsabiqəsi başa çatdı. İyunun 15-də Bakıdakı Azad Fikir Universitetində müsabiqənin qalibləri açıqlandı. Gənc yazar Musa Əfəndi “Onları yol apardı” hekayəsi ilə müsabiqənin qalibi oldu. Ona mükafatı Amerikadakı Beynəlxalq Yayım Şurasının (BBG) üzvü, hazırda Bakıda səfərdə olan səfir Victor Ashe təqdim edib. 2-ci mükafatlara "Gilənar albalı olurmu?" hekayəsi ilə Azad Qaradərəli və "Zabitəli kişinin arvadı" hekayəsi ilə Rəhim Əliyev layiq görülüblər.**

3-cü mükafatlar isə aşağıdakı müəlliflərə çatıb:

Jalə İsmayıl *("Ülviyyə Heydərova" hekayəsi)*

Babək Göyüş *("Yaşıl qurbağanın çəhrayı daşı")*

Mətləb Muxtarov *("Araba Sahipinden Satılıktır")*

Qaliblər - əsəri müsabiqənin qısa siyahısına düşmüş yazarlar arasından seçilib. 1-ci mükafatın sahibinə notebook, ikinci yerləri tutan müəlliflərə netbook-lar, üçüncü mükafatçılara isə e-book readerlər hədiyyə edilib. Onlara ilk turda verilən əsas ballar və son turda verilmiş əlavə ballar yaxın saatlarda açıqlanacaq. Qalibləri yazıçılar Rafiq Tağı, Pərviz Cəbrayıl, tənqidçi Tehran Əlişanoğlu və "525-ci qəzet"in redaktorunun mədəniyyət, ədəbiyyat üzrə müavini Seyfəddin Hüseynli seçiblər.

# Üzeyir bəy Hacıbəyli. Müsəlmanın işi..


Üzeyir bəy Hacıbəyli

**Camaatımızın cürbəcür xasiyyətləri vardır ki, qəzet yazıçıları hər gün o barədə də yazıb, yazıb, genə də yazırlar. Məsələn, yatmaq, tənbəllik, dalda qalmaq, xabi-qəflət, ağlamaq lazım olmayanda ağlamaq, ağlamaq lazım olanda ağlamamaq və sairə və sairə. Bəs, bir xasiyyətimiz dəxi vardır ki, o barədə qəzetçilərimizin hələ xəbəri yoxdu, amma mən bu gün bildim. O xasiyyət - küsməkdir. Həqiqət, camaatımız çox küsəyən imiş. Özü də küsməyin bu kəlamimövzun ilə bildirir: "Elə müsəlmanların işi belə olar".**

-- Balam, bu kitabın qiyməti neçədir?

-- Yarım manat.

--Yarım manat?!?! Elə müsəlmanların işi belə olar.

* * * * *

-- Balam, neyçün mənim oğlumu o biri klasa keçirmədiniz?

-- Sənin oğlun dərslərindən zəifdir.

-- Zəif deyil, ancaq, elə müsəlmanın işi belə olar.

* ** * *

-- Deyirəm, vallah, elə müsəlmanın işi belə olar.

-- Nə olub ki?

--Əşi, altı şahı manat pul verib qarpız almışam, qarpız balqabaq kimi dadsız çıxıbdır.

* * * * *

-- Kərbəlayı Əli, bu beş manata xırda ver.

-- Vallah, xırda yoxdur.

-- Yoxdur? Balam, elə müsəlmanın işi belə olar.

* * * * *

-- Adə, hambal, bu kisələri götür, apar Şamaxı yoluna. Al, bu da bir şahı manat.

-- Hacı, kisələr ağırdır, bir şahı azdır.

-- Bir şahı azdır? Hə, elə müsəlmanın işi belə olar özü də iranlı ola.

Qərəz, camaatımız çox küsəyəndir. Bir balaca o yan-bu yan oldu, bir də görürsən ki, xatirinə dəydi, küsdü, burnunu salladı.... Özümüz özümüzdən küsürük. Ayrılar başımıza tənbəki oyunu açsa da, qapazlasa da, təpikləsə də küsmərik. Öz müsəlmanımızdan küsərik.... Balam, elə müsəlmanın işi belə olar.

## AzadliqRadiosu.az saytında həmçinin oxuyun



Franz Hohler: **"Kitabımın Azərbaycanda çap olunmasına çox sevindim"**



**Səməd Vurğunun şeiri ləzgi dilində**



**Nobel mükafatlı şairi diktator Pinoçet zəhərlədib?**



Nuranə Nur: **Heç ağlıma gəlməzdin**

# ABŞ-ın məxfi internet layihələri

**Repressiv hökumətlər dissidentləri susdurmaq üçün interneti və mobil telefonları ya senzuraya məruz qoyur, ya da söndürür. İndi Obama administrasiyası dissidentlərin bu maneələrdən yan keçə bilməsi, «görünməz» internet və «kölgə» mobil telefon sistemi yaratmaq üçün qlobal səylər həyata keçirir. Xarici ölkələrin ərazisində müstəqil - hökumətin nəzarət etdiyi vahid şəbəkədən yan keçə bilən mobil telefon şəbəkəsi yaratmaq layihəsi ABŞ administrasiyasının dəstəklədiyi layihələrdən biridir.**

Dövlət Departamentinin ayırdığı 2 milyon dollarlıq qrantla maliyyələşən başqa bir layihə «Çamadanda internet» adlanır. Bu çamadanı sərhəddən gizli keçirdikdən sonra geniş bir ərazidə internetə giriş imkanı verən naqilsiz kommunikasiya yaratmaq mümkün olacaq.

**«HİYLƏGƏR ŞƏBƏKƏ»**

«New York Times» qəzeti Amerikanın bu layihələri haqqında məxfi sənədlər əldə edib. Misal üçün, Dövlət Departamenti bir layihə maliyyələşdirir ki, bu da «hiyləgər şəbəkə» yaradılmasını nəzərdə tutur. Bu «hiyləgər şəbəkə» sayəsində İran, Suriya və Liviya kimi ölkələrdə insanlar bir-biriləri ilə azad şəkildə əlaqə saxlaya biləcək və belə şəbəkələr yerli hökumətlər üçün əlçatmaz olacaq. Prezident Hüsnü Mübarək hakimiyyətinin son günlərində Misirdə interneti bağlamışdı. Son vaxtlar Suriya hökuməti də ölkənin əksər ərazisində interneti bağlayıb.

Uzun onilliklər boyu ABŞ avtoritar ölkələrdə «Amerikanın səsi» və s. vasitələrlə radio proqramları yayımlayıb. Son vaxtlarda isə Vaşinqton Çin kimi ölkələrdə istifadəçilərin anonimliyini təmin edən kompyuter proqramlarının hazırlanmasına böyük diqqət ayırır. Həmin ölkə vətəndaşlarına hökumətin nəzarətindən yan keçməklə yazışma yolları öyrədilir.

**«İNTERNET ÇAMADANI»**

Bəziləri hesab edirlər ki, yeni üsulların mənfi nəticələri də ola bilər. Məsələn, repressiv hökumətlər «internet çamadanı»nı sərhəddən keçirən şəxsi və ya həmin proqramlardan istifadə edənləri tutub cəzalandıra bilərlər. Lakin başqaları deyirlər ki, bu risk həmin layihələrin potensial faydasından daha azdır. «Çamadanda internet» layihəsinin rəhbəri Saşa Maynrat deyir ki, «biz elə bir infrastruktur yaradacağıq ki, orada bu texnologiyanı söndürmək, ona nəzarət etmək, yaxud onu izləmək qeyri-mümkün olacaq».

**TORPAĞA BASDIRILAN MOBİL TELEFONLAR**

«Kölgə mobil telefon sistemi» isə vaxtilə Əfqanıstanda tətbiq olunub. Taliban rejimi kənardan virtual olaraq müdaxilə etməklə axşam saat 6-dan səhər saat 6-ya qədər mobil telefonları söndürürdü. Bu, adamların hazırlanan terror hücum-



ları haqqında təhlükəsizlik qüvvələrinə məlumat verə bilməməsi üçün idi. Bundan sonra Amerikanın bazalarında qüllələr yaradıldı. Bu qüllələr sayəsində mobil operator şəbəkəsi söndüyü halda belə, mobil telefonların işləməsini təmin edir.

**«DİVERSANT FƏALİYYƏTİ»**

2009-cu ilin mayında Şimali Koreyada Kim adlı bir şəxs Çinin Şenyan şəhərindəki Amerika konsulluğunun əməkdaşları ilə görüşüb. Kim adamları gizli Şimali Koreyadan başqa ölkələrə çıxarırdı. Konsulluq əməkdaşları ondan soruşublar ki, bu işi görərkən o, sərhədin o tayından bu tayı ilə necə əlaqə saxlayır. Kim çox məlumat verməsə də deyib ki, cib telefonlarını sərhəddəki təpəliklərdə gizlədir. Şimali Koreyadan gələnlər gecə bu telefonları qazıb çıxarır və Çindəki qüllələrin siqnalları sayəsində sərhədin o tayındakılarla danışa bilirlər. Bu üsul amerikalıların yeni diversant fəaliyyəti layihəsinin əsasında durur.

# Gəncədə 3 əsrlik tarixi binalar ağardılır



Tarixi binalar təmir olunur

**«Bizim binamız tarixi binadır. Təzə icra başçısı gələndən binamızın üzünü təmir edirlər, ağardırlar. Tarixi binalara toxunmaq olmaz. Ötən dəfə də binamızı siyahıya aldılar. 3 əsr yaşı var, istəmirik ki, binamızı bu hala salsınlar».**

Bu sözləri Gəncənin Mirzə Abbas Abbaszadə küçəsindəki binada yaşayan Səadət Bağırova deyir.

64 yaşlı Sürəyya xanım isə deyir ki, binanın pilləkənlərini çıxanda, bir neçə dəfə az qala yıxılıb. Deyir ki, belə qədim binanın üzünü bəzəməkdənsə, pilləkənini düzəltsinlər. Bir neçə ailənin yaşadığı bu binanın digər sakinləri də tarixi dəyəri olan evlərinin müasir görkəmə salınmasından narahatdırlar:

- «Təhlükəli, qəza vəziyyətində olan binadır. Buranı təmir eləməlidirlər».

- «Qabaqdakı binanın öz gözəlliyini saxladılar, ancaq oyulan yerlərini sementlədilər. Amma buranı ağartdılar, indi qədim binaya oxşamır».

**• ABİDƏLƏRİN SİYAHISI DƏQİQLƏŞMƏLİDİR**

**• AVROPA VƏ ŞƏRQ MEMARLIĞININ SİNTEZİ**

**• «UÇMAQ TƏHLÜKƏSİNDƏDİR, DEMƏLİ, ÖMRÜNÜ BAŞA VURUB»**

**Gülnur Raqifqızının reportajının davamını AzadliqRadiosu.az saytında oxuya bilərsiniz.**

# Məktəblərdə yenə məcburi abunə?



Korrupsiyaya qarşı mübarizənin davam etdiyi bir vaxtda orta məktəblərdə müəllimlərdən müxtəlif adlar altında pul yığılması ilə bağlı yenə məlumatlar səslənməkdədir. Masallı rayon Ərkivan qəsəbəsindəki 1 saylı orta məktəbin müəllimi Mirzəkişi Mirzəyev deyir ki, müəllimlərin razılığı oldu-olmadı ildə iki dəfə onların maaşından 7-8 faiz qəzetlərə abunə pulu tutulur. Onun iddiasına görə, abunə üçün məktəbdəki bütün müəllimlərdən pul yığılsa da, məktəbə yalnız bir –iki qəzet gəlir, üstəlik, bir-neçə gün gecikmə ilə: «Amma məktəbə bir iki qəzet gəlir, onu da hansı müəllim cəld tərpənirsə, o, götürür".

**«ABUNƏ ÜÇÜN İLDƏ 100-150 MİN MANAT PUL YIĞILIR, AMMA...»**

Mirzəkişi Mirzəyev deyir ki, onun apardığı təxmini hesablamalara görə, bir ildə rayondakı məktəblərdən 100-150 min manat abunə pulu yığılır. Onun bildirməsinə görə, hazırda müəllimlərdən abunə pullarının yığılmasına başlanılsa da, müəllimlər qəzetləri yalnız yeni dərs ili başlayanda görürlər.

1 saylı məktəbin direktoru Zahirə Məmmədova isə qəzetlərə abunənin könüllü olduğunu deyir. Bununla belə, məktəb direktoru qəzet abunəsi üçün müəllimlərdən nə qədər pul yığılması ilə bağlı məlumatların sirr olduğunu deyir: «Mən deməməliyəm, bu, mənim öz sirrimdir. Bunun müəllimlərə dəxli yoxdur, xoşlamırlarsa, ərizələrini verib çıxsınlar, onsuz da onlar yetişiblər».

TƏHSİL ŞÖBƏSİNİN MÜDİRİ: **«DÖVLƏT QƏZETİNƏ 10-20 MANAT YAZILMAQ NƏ BÖYÜK MƏSƏLƏDİR Kİ...»**

Rayon Təhsil Şöbəsinin müdiri Astan İbişov isə AzadlıqRadiosuna deyib ki, rayondakı 98 orta məktəb üzrə 3076 müəllim var ki, onların da bir hissəsi artıq qəzetlərə abunə olub. O bu prosesin ayın sonuna qədər yekunlaşacağını deyir. Abunə məsələsinin könüllü olduğunu bildirən təhsil şöbəsinin müdiri bu məsələyə müdaxilə etmədiklərini deyir: «Dövlət bizə əməkhaqqı verir, bizə bu qədər qayğı göstərir, altı ayda bir dəfə dövlətin qəzetinə 10-20 manat yazılmaq nə böyük məsələdir ki. Dövlət nə qədər pul versə də, müəllimlər həmişə narazıdırlar».

**«1 FAİZƏ ETİRAZ EDƏN MÜƏLLİM, 7-8 FAİZƏ NECƏ RAZI OLA BİLƏR Kİ?»**

2010-cu ildə Masallı rayonunun bəzi məktəblərində müəllimlər maaşlarından 1 faiz Müdafiə Fonduna pul tutulmasına etiraz etdikdən sonra isə bu məsələ dayandırılıb. 1 saylı məktəbin müəllimi Mirzəkişi Mirzəyev deyir ki, maaşlarından 1 faiz tutulmasına etiraz edən müəllimlərin könüllü olaraq maaşlarının 7-8 faizini qəzet abunəsinə verməsi inandırıcı deyil.

***Maarif Çingizoğlu***

# AzadlıqRadiosunda verilişlər:

<u>*Unutmayın:*</u> Siz bu verilişləri canlı dinləyə bilmirsinizsə, istənilən vaxt AzadlıqRadiosu.az saytında onların səs yazılışlarına qulaq asa bilərsiniz. Bu, elə də çətin deyil.

**İşdən sonra** | **14-24**
**Can Bakı** | **İz**
**Xüsusi reportaj** | **Panorama**
**Qaynar xətt** | **Qafqaz Qovşağı**
**Həmyerli** | **Oxu zalı**
**Tanınmışlar** | **Hər kəsin haqqı var**
**Şəffaflıq** | **Təbriz Ekspress**

## Daimi rubrikalar




# "Simsiz teleqraf"

## QEYRİ-ADİ ELAN




Torpaq və peyin satiram, münasib qiymətə...
Yükləyib: Anonim
30.05.2011

Sizdə də maraqlı video, foto və ya səs yazısı varsa bizə göndərin. Materialı kompyuterinizdən yükləmə səhifəsinə daxil olmaqla, yaxud MMS kimi mobil telefondan yollaya bilərsiniz. Ehtiyac varsa, anonimliyi təmin edirik.

**Azərbaycandan:** (050) 213-56-30,
**Xaricdən:** (+420) 602 517 052
**Görüntüləri elektron poçtla da yollamaq olar:**
efir@azadliqradiosu.az

# AzadliqRadiosu.az®

## necə dinləməli...

**HotBird 13$^0$E**

**Kanalın adı**
Radio Free Europe/Radio Liberty
**Pol:** V
**Tezlik:** 12.226 Ghz
**Sürət:** 27.500 MS/s

24 saat

**42$^0$ E**

**Kanalın adı**
Azadliq VOA Azeri
**Pol:** H
**Tezlik:** 11.862 Ghz
**Sürət:** 27.500 MS/s

## Azadlıq Radiosu
## Ədəbiyyat Portalı

# “OXU ZALI”




**"Ədəbi Azadlıq-2011"**

Qalib kim oldu?
Ətraflı
**AzadlıqRadiosu.az**-da



## Verilişlərin vaxtı:

| | |
|---|---|
| Səhər proqramı | $08^{00}$-$10^{00}$ |
| Günorta proqramı | $12^{00}$-$13^{00}$ |
| Təkrarlar | $15^{00}$-$16^{00}$ |
| İşdən sonra | $17^{00}$-$19^{00}$ |
| Kontekst | $20^{00}$-$21^{00}$ |
| Gecə proqramı | $22^{00}$-$24^{00}$ |

## Bizimlə əlaqə:

**E-mail:** efir@AzadliqRadiosu.az

**Qaynar Xətt:** **436-77-41**

**SMS:** 050/ 744-10-17
**MMS:** 050/ 213-56-30


Azərbaycan Respublikası Ədliyyə Nazirliyində mətbu nəşrlərin reyestrinə daxil edilib, №3080

**“Fərqli düşüncə” jurnalının xüsusi buraxılışı**

Təsisçi və redaktor: Ş.A.Namazov

Bülleten redaksiyada səhifələnib, “Qanun” mətbəəsində çap olunub
Mətbəənin ünvanı: Bakı, Tibilisi prospekti, 2-ci Alatava, 9

Redaksiyanın ünvanı: Bakı, F.Şahbazov küçəsi, 18
email: ferqlidergi@gmail.com
Tiraj: 10000 nüsxə
Pulsuz